Azərbaycan Respublikası adından

Q Ə T N A M Ə

İş № 2(103)-2264/2010

«11» iyun 2010-cu il                                                                                    Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin
mülki işlər üzrə kollegiyası

Hakimlər: Əsədov Mehti Fəyyaz oğlunun sədrliyi və məruzəsilə,
Tağızadə Mirzə Nəsib oğlu və Səmədov Tofiq Səməd oğlundan ibarət tərkibdə,
məhkəmə iclas katibi Tanrıverdiyeva Aysel Novqubat qızı,
iddiaçı Məmmədov İlqar Mustafa oğlunun, onun etibarnamə üzrə nümayəndəsi Abdullayev Loğman Qüdrət oğlunun,
cavabdeh Əliyeva Sevinc Həsənağa qızının etibarnamə üzrə nümayəndəsi Səfərov Namizəd Heydər oğlunun,
cavabdeh Suraxanı rayon Pİ-nin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi şöbəsinin etibarnamə üzrə nümayən dəsi Paşayev Əfqan Əhməd oğlunun,
cavabdeh Suraxanı rayon Bülbülə qəsəbə Bələdiyyəsinin etibarnamə üzrə nümayəndəsi Dövlətov Fuad Dövlətəli oğlunun,
müstəqil tələb irəli irəli sürən üçüncü şəxs Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin etibarnamə üzrə nümayəndələri Seyfullayev Elçin Qubad oğlunun və Zahirli Elşən Həsən oğlunun iştirakları ilə,
Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsindən iddiaçı Məmmədov İlqar Mustafa oğlu və onun etibarnamə üzrə nümayəndəsi Abdullayev Loğman Qüdrət oğlu, cavabdeh Əliyeva Sevinc Həsənağa qızı və onun etibarnamə üzrə nümayəndəsi Səfərov Namizəd Heydər oğlu, cavabdeh Əliyeva Sevinc Həsənağa qızının etibarnamə üzrə nümayəndəsi və vəkili Həsənov Hüseyn Xeybər oğlu tərəfindən verilmiş apellyasiya şikayətlərinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq,

m ü ə y y ə n     e t d i :

Ərizəçi Məmmədov İlqar Mustafa oğlu maraqlı şəxslər Əliyeva Sevinc Həsənağa qızı, Bakı şəhəri Suraxanı RPİ-nin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi Şöbəsinə, Suraxanı

rayon Bülbülə qəsəbə Bələdiyyəsinə, Suraxanı RİHB-nın Bülbülə qəsəbə Nümayəndəliyinə qarşı ərizə ilə məhkəməyə müraciət edərək, Bakı şəhəri, Suraxanı rayonu, İ.Məmmədov küçəsi, 27 saylı evdə S.Əliyevanın daimi pasport qeydiyyatının ləğv edilməsi, tikiliyə verilən hüquqi ünvan qeydinin ləğv edilməsi, bələdiyyənin texniki pasportunun onun adına dəyişdirilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Ərizəçi Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 53-cü maddəsinə əsasən, tələbinin əsasında, həcmində və predmetində dəyişiklik edərək, cavabdehlər Əliyeva Sevinc Həsənağa qızı, Bakı şəhəri Suraxanı RPİ-nin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi Şöbəsinə, Suraxanı rayon Bülbülə qəsəbə Bələdiyyəsinə, Suraxanı RİHB-nın Bülbülə qəsəbə Nümayəndəliyinə qarşı Bakı şəhəri, Suraxanı rayonu, İ.Məmmədov küçəsi, 27 saylı ünvanda yerləşən qanunsuz tikilinin sökülməsinə, həmin tikilidə Sevinc Əliyevanın daimi pasport qeydiyyatının ləğv edilməsi, tikiliyə verilən hüquqi ünvan qeydinin ləğv edilməsi, bələdiyyənin texniki pasportunun ləğv edilməsinə dair iddia ərizəsinə əlavə ilə məkəməyə müraciət etmiş, bundan başqa, iddiaçı Məmmədov İlqar Mustafa oğlu Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 53-cü maddəsinə əsasən, iddia tələbinin həcmində dəyişiklik edərək, cavabdehlər Əliyeva Sevinc Həsənağa qızı, Bakı şəhəri Suraxanı RPİ-nin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi Şöbəsinə, Suraxanı rayon Bülbülə qəsəbə Bələdiyyəsinə, Suraxanı RİHB-nın Bülbülə qəsəbə Nümayəndəliyinə qarşı Bakı şəhəri, Suraxanı rayonu, İ.Məmmədov küçəsi, 27 saylı ünvanda yerləşən qanunsuz tikilinin sökülməsinə, həmin tikilidən Əliyeva Sevinc Həsənağa qızının daimi pasport qeydiyyatlarının ləğv edilməsi, onun ailə üzvləri ilə birlikdə həmin tikilidən çıxarılması, tikiliyə verilən hüquqi ünvan qeydinin ləğv edilməsi, bələdiyyənin texniki pasportunun ləğv edilməsinə dair iddia ərizəsinə əlavə ilə məhkəməyə müraciət etmişdir.

Müstəqil tələb irəli sürən üçüncü şəxs Suraxanı rayon İcra Hakimiyyəti cavabdehlər Əliyeva Sevinc Həsənağa qızına, Suraxanı RPİ-nin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi Şöbəsinə qarşı Bakı şəhəri, İ.Məmmədov küçəsi, 27 saylı ünvanda Əliyeva Sevinc Həsənağa qızının yaşayış hüququnun itirilməsi, daimi pasport qeydiyyatından çıxarılması, özbaşına tikilmiş evin boşaldılması və sökülməsi barədə iddia tələbi ilə məhkəməyə müraciət etmişdir.

Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsi ilə iddiaçı Məmmədov İlqar Mustafa oğlunun iddia tələbi təmin olunmamış, müstəqil tələb irəli sürən üçüncü şəxs Suraxanı rayon İcra Hakimiyyətinin cavabdeh Əliyeva Sevinc Həsənağa qızına, Suraxanı rayon Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi Şöbəsinə qarşı yaşayış hüququnun itirilməsinə, qeydiyyatdan çıxarılmaya, özbaşına tikilmiş evin boşaldılması və sökülməsinə dair iddiası təmin olunmuşdur.

Qeyd olunan qətnamə ilə razılaşmayan iddiaçı Məmmədov İlqar Mustafa oğlu və onun etibarnamə üzrə nümayəndəsi Abdullayev Loğman Qüdrət oğlu, cavabdeh Əliyeva Sevinc Həsənağa qızı və onun etibarnamə üzrə nümayəndəsi Səfərov Namizəd Heydər oğlu, cavabdeh Əliyeva Sevinc Həsənağa qızının etibarnamə üzrə nümayəndəsi və vəkili Həsənov Hüseyn Xeybər oğlu apellyasiya şikayətləri vermişlər.

İddiaçı Məmmədov İlqar Mustafa oğlu və onun etibarnamə üzrə nümayəndəsi Abdullayev Loğman Qüdrət oğlu apellyasiya şikayətində birinci instansiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normaları pozulduğundan apellyasiya şikayətinin təmin olunaraq iş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsində dəyişiklik edilərək iddia tələbinin təmin olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

Cavabdeh Əliyeva Sevinc Həsənağa qızı və onun etibarnamə üzrə nümayəndəsi Səfərov Namizəd Heydər oğlu apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normaları pozulmuş, məhkəmə nəzərə almamışdır ki, mübahisəli tikili qanunsuz tikinti, yəni müvafiq razılıq alınmadan həyata keçirilmiş tikinti hesab olunsa da, mübahisə predmeti olan mənzil tikinti qaydalarına əməl olunmaqla inşa edilmiş və Sevinc Əliyevanın yeganə mənzilidir. Apellyasiya şikayətinin təmin olunaraq iş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsinin ləğv edilərək, iddianın rədd olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

Cavabdeh Əliyeva Sevinc Həsənağa qızının etibarnamə üzrə nümayəndəsi və vəkili Həsənov Hüseyn Xeybər oğlu apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi tərəfindən sübutlar düzgün tədqiq edilməmiş, onlara düzgün hüquqi qiymət verilməmiş, qanunsuz və əsassız olaraq Suraxanı rayon İcra Hakimiyyəti müstəqil tələb irəli sürən üçüncü şəxs qismində işə cəlb edilmiş, maddi və prosessual hüquq normaları pozulmaqla Suraxanı rayon İcra Hakimiyyətinin iddiasına münasibətdə işin hallarına və tərəflərin qarşılıqlı münasibətlərinə uyğun olmayan qətnamə qəbul etmişdir. Apellyasiya şikayətinin təmin olunaraq iş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsinin Suraxanı rayon İcra Hakimiyyətinin iddiasının təmin olunması hissəsində ləğv edilib, həmin hissədə iddianın rədd olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir.

Məhkəmə iclasının vaxtı və yeri haqqında cavabdeh Əliyeva Sevinc Həsənağa qızına və onun etibarnamə üzrə nümayəndəsi Həsənov Hüseyn Xeybər oğluna müvafiq qaydada məlumat verilməsinə baxmayaraq məhkəmə iclasına gəlməmişlər və gəlməmələrinin səbələri barədə məhkəməyə heç bir məlumat daxil olmamışdır. Məhkəmə kollegiyası Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 376.2-ci maddəsinin tələblərini rəhbər tutaraq gəlməyən tərəflərin iştirakları olmadan işə baxılmasını mümkün saydı.

Məhkəmə kollegiyasının iclasında iddiaçı Məmmədov İlqar Mustafa oğlu tərəfindən verilmiş apellyasiya şikayətini müdafiə edərək, apellyasiya şikayətinin dəlillərinə uyğun izahat verməklə, izahatında əlavə olaraq göstərmişdir ki, cavabdeh Sevinc Əliyeva ilə 2005-ci ildən 2009-cu ilin əvvələrinə qədər qeyri rəsmi nikah münasibətlərində yaşamış, bankdan kredit yolu ilə götürdüyü 40.000 (qırx min) ABŞ dollarına Əhmədov Elşən Muxtar oğlundan mübahisə predmeti olan Bakı şəhəri, Suraxanı rayonu, İ.Məmmədov küçəsi, 27 saylı ünvanda yerləşən özbaşına tikilini almış, evi aldıqdan sonra təmir etdirmiş, evin içinə müxtəlif əşyalar almış, qaz, su, işıqla təhciz edilməsindən ötrü müvafiq qurumlara müraciətlər etmişdir. Bundan sonra S.Əliyevanın həmin evə pasport qeydiyyatına düşməsinə köməklik etmiş, cavabdeh Əliyeva 2008-ci ilin aprel ayının 18-də işə düzəlmək adı ilə ondan 3200 ABŞ dolları məbləğində pul alaraq qardaşı Murad Əliyevin qaytaracağını vəd etsə də bir müddət sonra qaytarmaqdan imtina edərək onunla münasibətlərini pozmuş, ona dəfələrlə şər və böhtanlar ataraq müxtəlif orqanlara ondan əsassız şikayətlər edərək onu həmin evə buraxmamış, S.Əliyevanın əsassız şikayətləri dəfələrlə polis orqanları tərəfindən araşdırılmış, onun əməlində cinayət tərkibi olmadığı üçün S.Əliyevanın şikayətləri əsasında onun barəsində toplanmış materiallara xitam verilmişdir. Mübahisəli ev özbaşına tikili olmaqla yanaşı evin yerləşdiyi torpaq sahəsinin hüquqverici sənədi yoxdur. Apellyasiya şikayətinin təmin olunaraq iş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsində dəyişiklik edilərək iddia tələbinin təmin olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş etdi.

Məhkəmə kollegiyasının iclasında iddiaçı Məmmədov İlqar Mustafa oğlunun etibarnamə üzrə nümayəndəsi Abdullayev Loğman Qüdrət oğlu apellyasiya şikayətini müdafiə edərək, təmsil etdiyi şəxsin izahatına uyğun izahat verməklə, apellyasiya şikayətinin təmin olunaraq iş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsində dəyişiklik edilərək iddia tələbinin təmin olunması barədə yeni qətnamə qəbul edilməsini xahiş edərək, izahatında əlavə olaraq göstərmişdir ki, birinci instansiya məhkəməsi tərəfindən nəzərə alınmamışdır ki, iş materialları ilə təsdiq olunur ki, mübahisəli ev özbaşına tikili olmaqla evin yerləşdiyi torpaq sahəsinin hüquqi statusu müəyyən edilməmiş, ona görə də mübahisəli tikilinin texniki pasportu və tikiliyə verilmiş hüquqi ünvan da ləğv edilməlidir.

Məhkəmə kollegiyasının iclasında cavabdeh Əliyeva Sevinc Həsənağa qızının etibarnamə üzrə nümayəndəsi Səfərov Namizəd Heydər oğlu təmsil etdiyi şəxs tərəfindən onun iştirakı və digər nümayəndəsi Hüseyn Həsənovun iştirakı ilə tərtib edilmiş apellyasiya şikayətlərini müdafiə edərək, apellyasiya şikayətlərinin dəlillərinə uyğun izahat verməklə, izahatında əlavə olaraq göstərmişdir ki, iddia ərizəsi məhkəməyə iddia icraatı qaydasında deyil, xüsusi iddia icraatı qaydasında verilmiş, iddiaçı İlqar Məmmədovun mübahisəli tikiliyə heç bir hüququ olmadığı və həmin tikilidə yaşamadığı halda onun iddiası əsassızdır, belə ki, Bakı şəhəri Bülbülə qəsəbəsi İ.Məmmədov küçəsi 27 ünvanında yerləşən qanunsuz tikili iddiaçı İ.Məmmədovun hansı maraqlarına toxunması müəyyn edilmədiyi üçün iddia ərizəsi iddia vermək hüququ olmayan şəxs tərəfindən verildiyi üçün rədd edilməli, iddiaçının iddia tələbi ilə müstəqil tələb irəli sürən 3-cü şəxs Suraxnı rayon icra Hakimiyyətinin iddia tələbi üst-üstə düşür, mübahisəli evin yerləşdiyi torpaq sahəsi İH-nin torpaq fonduna aid olub - olmaması barədə iş materiallarında heç bir sübut yoxdur, mübahisəli evlə qonşuluqda tikilmiş bütün evlər hüququ sənədləri olmadan tikilmiş evlərdir. Apellyasiya şikayətllərinin təmin olunaraq birinci instansiya məhkəməsinin qətnaməsinin Suraxanı Rayon İcra Hakimiyyətinin iddia tələbinin təmin edilməsi hissəsində rədd edilməsini xahiş etdi.

Məhkəmə kollegiyasının iclasında cavabdeh Suraxanı rayon Pİ-nin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi şöbəsinin etibarnamə üzrə nümayəndəsi Paşayev Əfqan Əhməd oğlu apellyasiya şikayətlərinin dəlilləri ilə razılaşmayaraq izahatında göstərmişdir ki, 2008-ci ilin axırlarında Məmmədov İlqar ilə Əliyeva Sevinc adlı şəxs Suraxanı rayon Pİ-nin Şəxsiyyət Vəsiqəsi və Qeydiyyat Şöbəsinə yaxınlaşaraq Bakı şəhəri, Bülbülə qəsəbəsi, İ.Məmmədov küçəsi, 27 ünvanda yerləşən evə vətəndaş S.Əliyevanın pasport qeydiyyatına alınmasını xahiş etmişlər. Qeydiyyat işi ilə o, məşğul olmuş, tərəfindən apardığı araşdırma zamanı müəyyən etmişdir ki, sözü gedən tikili qanunsuz inşa edilmiş və heç bir hüququ sənədi yoxdur. Lakin S.Əliyeva həmin evdə yaşadığı üçün o, S.Əliyevanı ünvan ayrılma və bələdiyyə sənədinə əsasən daimi pasport qeydiyyatına almışdır.

Məhkəmə kollegiyasının iclasında cavabdeh Suraxanı rayon Bülbülə qəsəbə Bələdiyyəsinin etibarnamə üzrə nümayəndəsi Dövlətov Fuad Dövlətəli oğlu apellyasiya şikayətlərinin dəlilləri ilə razılaşmayaraq izahatında göstərmişdir ki, mübahisə predmeti olan Bakı şəhəri, Bülbülə qəsəbəsi, İ.Məmmədov küçəsi 27 saylı ünvanda yerləşən ev qanunsuz tikili olmaqla heç bir hüququ sənədi yoxdur, tərəflərindən tərtib edilmiş texniki pasport yalnız vergi ödənilməsi üçün nəzərdə tutulmuş, aparılmış araşdırma zamanı müəyyən edilmişdir ki, mübahisəli ev və onun yerləşdiyi küçədə yerləşən digər evlərin torpaq sahələri Suraxanı rayon Bülbülə qəsəbə Bələdiyyəsinin balansında deyil.

Məhkəmə kollegiyasının iclasında müstəqil tələb irəli irəli sürən üçüncü şəxs Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin etibarnamə üzrə nümayəndəsi Seyfullayev Elçin Qubad oğlu apellyasiya şikayətlərinin dəlilləri ilə razılaşmayaraq izahatında göstərmişdir ki, həmin ərazidə yerləşən digər tikililər kimi mübahisəli tikilinin də özbaşına tikili olduğunu bildirərək apellyasiya şikayətlərinin təmin olunmadan iş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etdi.

Məhkəmə kollegiyasının iclasında müstəqil tələb irəli irəli sürən üçüncü şəxs Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin etibarnamə üzrə nümayəndəsi Zahirli Elşən Həsən oğlu apellyasiya şikayətlərinin dəlilləri ilə razılaşamayaraq, izahatında göstərmişdir ki, aparılmış araşdırma zamanı müəyyən edilmişdir ki, mübahisəli Bakı şəhəri, Bülbülə qəsəbəsi, İ.Məmmədov küçəsi 27 saylı ünvanda inşa edilmiş ev özbaşına tikilidir, tikili Tkinti Şəhərsalma və memarlıq tələblərinə uyğun olmayaraq aparlımış, tikinti işlərinə qanunla nəzərdə tutulmuş qaydada İHB tərəfindən sərəncam verilməmiş, evin lahiyə smeta sənədləri təsdiq edilmədiyi halda tikilmiş, cavabdeh həmin evə qanunsuz olaraq daimi pasport qeydiyyatna alınmış, mübahisəli tikilinin yerləşdiyi torpaq sahəsi dövlət torpaq fonduna aid olmasına baxmayaraq, həmin torpaq sahəsi zəbt edilmişdir. Apellyasiya şikayətlərinin təmin olunmadan iş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etdi.

Məhkəmə kollegiyası izahatları dinləyərək, apellyasiya şikayətlərinin dəlillərini və iş materiallarını araşdıraraq, işdə olan sübutları tədqiq edərək hesab edir ki, iş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən, apellyasiya şikayətləri isə təmin edilmədən saxlanılmalıdır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372.7-ci maddəsinin tələbinə görə apellyasiya instansiyası məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır.

Həmin Məcəllənin 217.2-ci maddəsinə görə qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

Aşağıdakılara əsasən məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsinin iş üzrə gəldiyi nəticə qanuni və əsaslı olmaqla işin hallarına uyğundur.

İş materialları və tərəflərin izahatları ilə mübahisəsiz olaraq təsdiq edilmişdir ki, Əliyeva Sevinc Həsənağa qızının hazırda yaşadığı Bakı şəhəri, Bülbülə qəsəbəsi, İ.Məmmədov küçəsi, 27 saylı evin yerləşdiyi torpaq sahəsi dövlət fonduna aid olan torpaq sahəsi olmaqla həmin torpaq sahəsi istifadə və ya icarə hüququ əsasında hər hansı şəxsə, o cümlədən cavabdeh Sevinc Əliyevaya qanunla müəyyən edilmiş qaydada verilməmiş, həmin torpaq sahəsində yaşayış və ya qeyri-yaşayış sahəsi inşa edilməsinə icazə verilməsi barədə hər hansı sübut təqdim edilməmiş, həmin tikili özəlləşdirilməmiş mənzildir və Bülbülə Bələdiyyəsi tərəfindən hesabat pasportu əmlak vergisi hesablanması üçün verilmiş, cavabdeh Sevinc Əliyeva heç bir hüquqi əsas olmadan həmin ünvana pasport qeydiyyatına alınmışdır.

İş materiallarına əlavə edilmiş məhkəmə tikinti-texniki ekspertizasının 16454 saylı 25 yanvar 2009-cu il tarixli rəyindən görünür ki, Suraxanı rayonu, İ.Məmmədov küçəsində yerləşən 27 saylı yaşayış evi tiklilərin texniki vəziyyətini nəzərə alaraq, yaşayış üçün yararlı olduğu müəyyən edilmişdir. Lakin yaşayış evinin inşası ilə əlaqədar müvafiq təşkilatlar

tərəfindən təsdiq edilmiş layihə və icazə sənədləri olmadığından digər suallar üzrə araşdırma aparılması mümkün olmamışdır.

İş materiallarına əlavə edilməsi üçün cavabdeh S.Əliyevanın nümayəndəsi N.Səfərov tərəfindən mübahisələndirilən evlə qonşuluqda tikilmiş müxtəlif fərdi yaşayış evlərinin fotoşəkilləri təqdim edilmişdir. Həmin fotoşəkillərin cavabdeh tərəfindən məhkməyə təqdim edilməsində məqsəd cavabdehin evi ilə qonşuluqda yerləşən digər evlərin də sənədsiz və qanunsuz tikildiyini məhkməyə nümayiş etdirmək olmuşdur. Birinci instansiya məhkəməsi düzgün olaraq müəyyən etmişdir ki, həmin fotoşəkllər cavabdehə qarşı müstəqil tərələb irəli sürən 3-cü şəxsin iddiasının əsassızlığına dəlalət edə bilməz. Belə ki, həmin fotoşəkildəki evlərin müvafiq sənədləşdirmə aparılmadan tikilməsini təsdiq edən hər hansı bir sənəd təqdim edilməmiş, hətta edilsə belə fotoşəkildəki fərdi yaşayış evləri hazırki məhkəmə mübahisəsi üzrə mübahisə predmeti deyildir. İş materiallarına əlavə edilməsi üçün cavabdehin nümayəndəsi N.Səfərov tərəfindən məhkəməyə təqdim edilmiş Əliyev Murad Həsənağa oğlunun, Səmədova Liysan Qəzənfər qızının, Kərimova Kəmalə Şahnəsib qızının, Xəlilova Vətəngül Qurban qızının və Əliyeva Gülnarə Sahib qızının ifadələrinə birinci instansiya məhkəməsi düzgün olaraq tənqidi yanaşmaqla hesab etmişdir ki, həmin ifadələrin kim tərəfindən və hansı şəraitdə verilməsi, eləcədə həmin şəxslərin yalan ifadə verməməyə görə məsuliyyətləri barədə iltizama imza edərək xəbərdar edilməmələri səbəbindən məhkəmə tərəfindən sübut kimi qəbul edilə bilməz.

Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 55-ci maddəsinə əsasən hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində hüquqları müvafiq icra hakimiyyəti orqanlarının və ya bələdiyyələrin qərarları və onlarla bağlanan müqavilələr; hüquqi və (və ya) fiziki şəxslər arasında bağlanan müqavilələr və torpaqla bağlı digər əqdlər; məhkəmənin torpaq sahəsi üzərində hüququn müəyyən edilməsinə dair qərarı və ya hökmü; vərəsəlik hüququ əsasında və qanunvericiliklə müəyyən edilmiş digər yollarla yaranır.

Həmin Məcəllənin 111-ci maddəsinə əsasən Azərbaycan Respublikasında torpaqların özbaşına tutulması (zəbt edilməsi) qanunla qadağan olunur. Özbaşına tutulmuş (zəbt edilmiş) torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarımalıdır. Torpaqların əvvəlki vəziyyətinə gətirilməsi (orada olan binaların, tikililər və qurğuların sökülməsi də daxil olmaqla) torpaqları zəbt etmiş hüquqi və fiziki şəxslər tərəfindən və ya onların hesabına həyata keçirilir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 180.1-ci maddəsinə əsasən tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak özbaşına tikinti sayılır.

Həmin Məcəllənin 180.2-ci maddəsinə əsasən özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə etmir. Onun tikintiyə dair sərəncam vermək, onu satmaq, bağışlamaq, icarəyə vermək, digər əqdlər bağlamaq ixtiyarı yoxdur.

«Şəhərsalmanın Əsasları haqqında Qanunun» 8-ci maddəsinə əsasən dövlət şəhərsalma norma və qaydaları şəhərsalma fəaliyyətini tənzimləmə vasitəsi olmaqla, şəhərsalma sənədlərinin hazırlanmasını və həyata keçirilməsini müəyyənləşdirən təbii-iqlim milli ənənələri və yerli xüsusiyyətləri, ekoloji, geoloji, hidrogeoloji, seysmik, demoqrafik şəraiti, sosial, mədəni-məişət obyektlərinə olan tələbatı, əlillərin ehtiyacını, su, kanalizasiya və enerji təchizatını, sanitariya-gigiyena, yanğına qarşı və digər mütləq tələbləri ifadə edən kəmiyyət və keyfiyyət göstəriciləri kompleksindən ibarətdir. Dövlət şəhərsalma norma və qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə

müəyyən olunmuş qaydada qəbul edilir, dəyişdirilir və ya ləğv edilir. Şəhərsalma fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslər dövlət şəhərsalma norma və qaydalarına əməl etməlidirlər.

Həmin Qanunun 25-ci maddəsinə əsasən qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığı alınmadan özbaşına bina və qurğular tikildikdə (Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada şəxsin özbaşına tikintiyə mülkiyyət hüququ məhkəmə tərəfindən tanındığı hallar istisna olmaqla), hüquqi və fiziki şəxslər tərəfindən cinayət, inzibati və mülki məsuliyyət daşıyırlar.

«Memarlıq fəaliyyəti» haqqında Azərbaycan Respublikası Qanunun 1-ci maddəsinin 7-ci abzasına əsasən tikintiyə icazə — memarlıq layihəsi mövcud qaydalar əsasında təsdiq edildikdən və müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçdikdən sonra həmin orqan tərəfindən sifarişçiyə verilən rəsmi icazə sənədidir. Həmin maddənin 1-ci maddəsinə əsasən isə memarlıq fəailiyyəti həmçinin müvafiq icra hakimiyyəti orqanlarında şəhərsalma və memarlıq məsələləri ilə məşğul olan idarələrin şöbələrin fəaliyyətidir.

«Memarlıq fəaliyyəti haqqında» Qanunun tətbiq edilməsi barədə Azərbayjan Respublikası Prezidentinin 1998-ci il tarixli fərmanının 2-ci bəndinin tələbinə əsasən, «Memarlıq fəaliyyəti haqqında» Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini həmçinin yerli icra hakimiyyəti orqanları öz səlahiyyəti hüdudlarında həyata keçirirlər.

Kollegiya iclasında və birinci instansiya məhkəməsində məhkəmə tədqiqi zamanı müəyyən edilmişdir ki, həqiqətən də Bakı şəhəri, Suraxanı r-n, Bülbülə qəsəbəsi İ.Məmmədov küçəsi 27 saylı ünvanda tikilən ev qanunsuz inşa edilərək özbaşına tikilidir. Həmin tikili inşa edilərkən, müvafiq icra hakimiyyəti orqanı kimi- Bakı şəhəri Suraxanı rayon İH-nin müvafiq razılığı alınmadan, şəhərsalma norma və qaydalarına, memarlıq qaydalarına uyğun olmadan, inşa edilmişdir. Belə ki, yerli icra hakimiyyəti orqanı kimi müstəqil tələb irəli sürən 3-cü şəxs Bakı şəhəri Suraxanı rayon İH-i tikililərin qanunla müəyyən edilmiş qaydada tikintisinə, lahiyələşdirilməsinə nəzarəti həyata keçirən dövlət orqanı olduğundan, mübahisəli tikilinin belə (dövlət nəzarəti) nəzarətdən kənar inşa edilməsi, həmin orqanın maraqlarına toxunmuşdur.

«Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikası Qanunun tətbiqi haqqında Əsasnaməyə əsasən, yaşayış yeri üzrə qeydiyyata alınma buna əsas verən sənədlər əsasında; mülkiyyət hüququnu təsdiq edən sənəd, yaşayış sahəsinə köçməyə əsas verən order və ya Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd əsasında həyata keçirilir.

İş materialları ilə təsdiq olunur ki, cavabdeh Sevinc Əliyevanın mübahisəli evdə daimi psaport qeydiyyatına alınması da əsassızdır. Belə ki, yaşayış yeri üzrə qeydiyyata alınmaya əsas verən sənədlərin dairəsi yuxarıda qeyd edilən maddi hüquq normalarında göstərilmişdir ki, mübahisəli ev özbaşına tikili olduğu üçün və belə sənədlər də olmadığından daimi pasport qeydiyyatı da əsassız aparılmışdır. Həmçinin mübahisəli ev yaşayış cəhətdən yararlı olsa belə, özbaşına tikili olduğundan müstəqil tələb irəli sürən 3-cü şəxsin tələbi əsaslıdır və həmin ev sökülməlidir. İddiaçı Məmmədov İlqar Mustafa oğlunun iddiası tələb hüququ olmayan şəxs tərəfindən verildiyi üçün əsassızdır və təmin olunmamalıdır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2-ci maddəsinə əsasən, məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Bu Məcəllənin 77.1-ci maddəsinə əsasən, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Həmin Məcəllənin 217.3-cü maddəsinə əsasən qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Həmin Məcəllənin 217.4-cü maddəsinə əsasən məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Kollegiya hesab edir ki, apellyasiya şikayətləri verən tərəflər tərəfindən apellyasiya şikayətlərinin əsaslı olması barədə heç bir mötəbər və tutarlı sübut növləri təqdim edilməmişdir.

Göründüyü kimi, birinci instansiya məhkəməsinin qətnaməsi faktlar nöqteyi nəzərindən qanuni və əsaslıdır, apellyasiya şikayətlərinin dəlilləri formal mülahizələrə əsaslanmaqla məhkəmə qətnaməsinin ləğv edilməsi üçün əsaslar yoxdur, maddi və prosessual hüquq normaları birinci instansiya məhkəməsi tərəfindən düzgün tətbiq olunmuşdur. Ona görə də iş üzrə məhkəmə qətnaməsi dəyişdirilmədən, apellyasiya şikayəti isə təmin edilmədən saxlanılmalıdır.

Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 382, 384.0.1, 392, 393, 402-406-cı maddələrinin tələblərini rəhbər tutaraq,

q ə t   e t d i :

İddiaçı Məmmədov İlqar Mustafa oğlu və onun etibarnamə üzrə nümayəndəsi Abdullayev Loğman Qüdrət oğlu, cavabdeh Əliyeva Sevinc Həsənağa qızı və onun etibarnamə üzrə nümayəndəsi Səfərov Namizəd Heydər oğlu, cavabdeh Əliyeva Sevinc Həsənağa qızının etibarnamə üzrə nümayəndəsi və vəkili Həsənov Hüseyn Xeybər oğlu tərəfindən verilmiş apellyasiya şikayətləri təmin edilməsin.

İş üzrə Suraxanı Rayon Məhkəməsinin 19 fevral 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən rəsmi qaydada verildiyi gündən iki ay müddətində Azərbaycan Respublikasının Ali Məhkəməsinə Bakı Apellyasiya Məhkəməsi vasitəsilə kassasiya şikayəti verilə bilər.